

**ZİYAFƏT ƏSGƏROV,**
Azərbaycan Respublikası
Milli Məclisi sədrinin müavini

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA HÜQUQ İSLAHATLARININ MEMARIDIR

**Mayası vətən və xalq sevgisindən yoğrulan, xalqının yolunda çəkdiyi əzab-əziyyəti sevgi ilə qarşılayan, dünyanı özünə heyran qoyan Heydər Əliyevlə - Tanrının xalqımıza verdiyi bu unikal şəxsiyyətlə öyünməyə, qürurlanmağa, fəxr etməyə bütün dünyanın, amma öncə və daha çox bizim, biz azərbaycanlıların haqqı vardır. Çünki Heydər Əliyev, hər şeydən əvvəl, bizimdir, öz əlləri ilə qurub-yaratdığı doğma Azərbaycanımızındır.**

Hamımızın gördüyümüz, amma hamımızın eyni cür duya və dərk edə bilmədiyimiz Heydər Əliyev okean tutumlu bir ürək sahibidir, 8 milyonun, bütövlükdə dünya azərbaycanlılarının ömrünü yaşayan, ömrü xalqının olan, canından əziz bildiyi müqəddəs ata yurdunu müstəqilliyə qovuşduran müqayisəyəgəlməz bir insandır.

Heydər Əliyev mehriban qəlbi, hər şeyi yaddaş etmək qabiliyyəti, natiqlik məharəti,universal biliyi ilə nadir istedad sahibidir, mənalı yaşamaq nümunəsidir, **mədəniyyət, intellekt mücəssiməsidir, idarəçilik və siyasət məktəbidir, son dönəm Azərbaycan tarixinin özüdür.**

**Azərbaycan həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev zəkasının, Heydər Əliyev əməyinin izi olmasın. Azərbaycanda dövlət quruculuğu və demokratikləşmə istiqamətində aparılan hüquq islahatları belə sahələrdən biridir. Görkəmli dövlət xadimi Heydər Əliyev hakimiyyətə tarixi qayıdışından sonra, yəni 1993-cü ildən bu günə qədər ölkəmizdə hüquq islahatlarının, demokratik dəyişikliklərin gerçəkləşdirilməsi sahəsində misilsiz xidmətlər göstərmiş, çox böyük işlər görmüşdür.**

**1995-ci il noyabrın 12-də Prezidentimizin başçılığı ilə hazırlanmış yeni Konstitusiyamız və demokratik əsaslarla seçilmiş ilk parlamentimiz Azərbaycanın müasir tarixində tamamilə yeni səciyyəli bir mərhələnin başlanğıcı olmuşdur. Son on ildə Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Azərbaycan Respublikası prezi-**

**dentinin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində qazandığı ənənələri əsas götürməklə inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsini də dərindən öyrənmişdir.**

**Komissiyanın 4 may 1996-cı il tarixli ilk iclasında respublika Prezidenti demişdir:**

"Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, - bir il, iki il, - hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun."

**Bu şərəfli vəzifənin həyata keçirilməsində ölkə parlamenti həmişə respublika Prezidentinə dəstək vermişdir. 1995-ci ildən bu günə kimi Milli Məclisdə 1500-dək qanun, qərar və digər aktlar qəbul edilmişdir.**

**Hüquq islahatları sahəsində çox önəmli sənədlərdən biri də Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin 1996-cı il iyun ayının 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Həmin sərəncama əsasən, beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Prokurorluq haqqında" qanun və digər normativ aktların layihələri hazırlanıb Milli Məclisə təqdim edilmiş və qəbul olunmuşdur.**

**Məlum olduğu kimi, Milli Məclisin qəbul etdiyi hüquqi sənədlərin böyük bir hissəsi cənab Prezident tərəfindən parlamentin müzakirəsinə göndərilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Ümumiyyətlə, respublika parlamenti son on il ərzində ölkə Prezidentinin təşəbbüsü ilə hüquq islahatları sahəsində xeyli tarixi sənədlər qəbul etmişdir.**

**"Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi məhz möhtərəm Prezidentimizin təşəbbüsüdür. Bu addım insan hüquq və azadlıqlarının qorunması sahəsində tarixi bir hadisədir. Prezidentin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı da hüquq islahatları sahəsində mühüm əhəmiyyət kəsb edən sənədlərdəndir. Bu fərmanda insan hüquq və azadlıqlarının başlıca meyar olduğu xüsusən vurğulanmış, icra strukturlarının vəzifələri müəyyənləşdirilmişdir. Bundan əlavə, parlament bu sahədə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunları qəbul etmişdir. Beləliklə, möhtərəm Prezidentimizin təşəbbüsü ilə Milli Məclisdə ölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər qəbul olunmuşdur.**



Möhtərəm Prezidentimiz tərəfindən Milli Məclisə göndərilmiş hüquqi sənədlər arasında Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasında müzakirə olunan bir sıra qanun layihələri, sazişlər və konvensiyalar da vardır. Bunlardan "Hərbi xidmətkeçmə haqqında", "Mülki müdafiə haqqında", "Dövlət sirri haqqında", "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" qanunları və başqa qanunların qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə sənədləri xüsusilə qeyd etmək lazımdır. Parlamentin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyası Prezidentin qanunvericilik təşəbbüsü ilə göndərdiyi daha bir sıra sənədləri müzakirə edərək Milli Məclisə təqdim etmişdir. "Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərə dair", "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Rusiya Federasiyası Müdafiə Nazirliyi arasında Rusiya Federasiyası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində hərbi kadrların hazırlanması haqqında", "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında" sazişlər, "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Konvensiya və s. belə hüquqi sənədlərdəndir.

Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul olunması hüquq islahatları baxımından respublikamız qarşısında mühüm öhdəlik və vəzifələr qoymuşdur. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində Azərbaycanda bir sıra tədbirlər həyata keçirilmişdir. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunvericilik aktları qəbul edilmişdir.

Hüquq islahatları sahəsində Milli Məclis bir neçə Konstitusiya qanunu da qəbul etmişdir. Bunlar "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya qanunlarından ibarətdir. Bütün bu sənədlər ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verilməsinin əyani təsdiqidir.

Prezidentimiz respublikamızın dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə demişdir:

**"1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaycanın ilk Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə**

**biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycanın ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı".**

... Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxıbdır".

Məlum olduğu kimi, Prezidentimiz milli qanunvericiliyimizin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədilə 22 iyun 2002-ci il tarixli fərmanla Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum aktı layihəsini ümumxalq səsverməsinə çıxardı.

Fərmanda bildirilirdi ki, bu addım respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasından, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsindən, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yeni müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilməsi zərurətindən irəli gəlir .

Referendumun keçirilməsi insan hüquq və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara, məhkəmələrə, Ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Milli Məclisdə Referendumun nəticələrindən irəli gələn müxtəlif qanun layihələri hazırlandı.

Milli Məclisin 2002-ci il payız sessiyasında Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri parlamentin müzakirəsinə verildi. Bunların içərisində "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum aktının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" qanun layihələri, həmçinin "Terrorizmlə mübarizə haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" sənədlər xüsusi yer tutur.

Erməni təcavüzü nəticəsində qaçqına çevrilmiş soydaşlarımızın dözülməz həyat şəraiti, onların pozulmuş hüquqlarının bərpa olunması ölkə Prezidentinin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikası Prezidentinin "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramının hazırlanması haqqında" 1 iyul 1998-ci il tarixli sərəncamı qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyətə



malikdir. Respublikamızın BMT-nin Qaçqınların statusuna dair Konvensiyasına və Protokoluna qoşulmaşı da bu qəbildən olan tədbirlər sırasına daxildir .

Milli Məclis də öz növbəsində qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasını təmin etmək üçün bir sıra qanunvericilik aktları qəbul etmişdir. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanun, "Qaçqınların mənzillə təmin olunması haqqında", "Qaçqınlara və məcburi köçkünlərə vergi güzəştləri verilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qərarlar bu qəbildən olan sənədlərdəndir.

Heydər Əliyevin apardığı uğurlu xarici siyasət Azərbaycanın bir çox ölkələrlə, mötəbər beynəlxalq təşkilatlarla əlaqəsini gündən-günə möhkəmləndirir. Bu gün Azərbaycanın Avropa Şurası, NATO Parlament Assambleyası, Parlamentlərarası İttifaq, ATƏT-in Parlament Assambleyası, İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlarla sıx əlaqə saxlaması, bu qurumlarda bilavasitə iştirakı hüquq islahatları sahəsində təcrübə qazanmaqda respublikamıza çox böyük fayda verir.

Respublikamızın beynəlxalq miqyasda əldə etdiyi mühüm nailiyyətlərdən biri də Avropa Şurası Parlament Assambleyasının 2003-cü ilin yanvar sessiyasında Milli Məclisin təşkilatdakı daimi nümayəndə heyətinin rəhbəri İlham Əliyevin yekdilliklə bu mötəbər qurumun sədr müavini və Büro üzvü seçilməsi olmuşdur. Heydər Əliyev ocağının layiqli yetirməsi İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında uğurlu və səmərəli fəaliyyət göstərir. Məhz bu məqsədyönlü fəaliyyətin nəticəsidir ki, təşkilat ilk Avropa qurumu kimi Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini etiraf etmişdir. Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətimizin üzvləri regiondakı vəziyyətlə əlaqədar 20-dən çox sənədin yayılmasına nail olmuşlar. Respublikamızın Avropa strukturlarına inteqrasiya olunması sahəsində aparılan siyasət bu gün də uğurla davam etdirilməkdədir.

Danılmaz bir həqiqətdir ki, Azərbaycanın dünya miqyasında tanınması, hər şeydən əvvəl, böyük rəhbərimiz Heydər Əliyevin adı və şəxsiyyətilə bağlıdır. Yuxarıda qeyd etdiyim kimi, həyatımızın bütün sahələrində, o cümlədən hüquq islahatlarının aparılması və tətbiq edilməsində möhtərəm Heydər Əliyevin gərgin, yorulmaz, fədakar fəaliyyəti hər addımda öz bəhrəsini verir. Ona görə də Prezidentimiz memarı olduğu müstəqil Azərbaycan Respublikasında həm də hüquq islahatlarının memarıdır .

Respublikamızın parlamenti həmişə olduğu kimi bundan sonra da hüquqi dövlətimizin qurucusu mohtərəm prezidentimizə dəstək verəcək, qarşısında duran vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.

Qarşıdan prezident seçkiləri gəlir. Bu da bir xoş təsadüfdür ki, 2003-cü il prezident seçkiləri möhtərəm prezidentimizin yubileyi ilə üst-üstə düşür. Hesab edirəm ki, xalqımız yenidən düzgün seçim edərək öz sabahına – Heydər Əliyevə səs verəcək, bir daha onun ətrafında sıx birləşəcəkdir.